# Azərbaycan regionda sülhün bərqərar olmasında maraqlıdır



***Prezident İlham Əliyevin Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının VI Sammitində iştirak etmək üçün Brüsselə işgüzar səfəri siyasi baxımdan çox zəngin oldu. Səfər çərçivəsində dövlət başçımız yüksək səviyyəli görüşlər keçirdi. Bunlardan biri də NATO-nun baş katibi Yens Stoltenberqlə görüşü oldu. Görüş zamanı müzakirə olunan məsələlərin nəticəsi barədə birgə keçirilən mətbuat konfransında məlumat verildi.***

NATO-nun Baş katibi Azərbaycanın alyansın dəyərli tərəfdaşı olduğunu, eləcə də, Azərbaycan Silahlı Qüvvələrinin Əfqanıstanda "Qətiyyətli dəstək" əməliyyatlarındakı fəaliyyətini yüksək qiymətləndirdi. O, Azərbaycan sülhməramlılarının Əfqanıstanı sonadək tərk edən hərbi qulluqçular olduğunu, həmçinin onların 120 mindən çox insanı Əfqanıstan hava limanı vasitəsilə təxliyyə etməsini NATO üçün böyük töhfə adlandırdı və buna görə möhtərəm Prezidentimizə təşəkkürünü bildirdi. Görüş zamanı postmüharibə dövründə regional məsələlər ətrafında fikir mübadiləsi, eləcə də, Cənubi Qafqazda təhlükəsizlik məsələləri müzakirə edilidi.

Möhtərəm Prezidentimiz Azərbaycanın NATO-nun üzv ölkələri ilə sıx dostluq və strateji tərəfdaşlıq əlaqələrinin olduğunu, eləcə də, alyansın aparıcı üzv dövlətlərindən olan qardaş Türkiyə ilə strateji müttəfiqlik münasibətlərini diqqətə çatdırdı. Bununla yanaşı, Azərbaycanın 1994-cü ildən NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramı ilə tərəfdaşlığının vacibliyi vurğulandı. Bu çərçivədə ölkəmizin NATO-nun Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planında və digər proqramlarında fəal iştirakı, Azərbaycan Silahlı Qüvvələri ilə NATO silahlı qüvvələri arasında operativ hərbi uyğunlaşmanın inkişaf etdiyi diqqətə çatdırıldı.

Həmçinin, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rolu, ölkəmizin NATO-nun "Qətiyyətli dəstək" missiyasının həyata keçirilməsində regional nəqliyyat və logistika mərkəzi kimi verdiyi töhfələr də təqdir edildi. Möhtərəm Prezidentimiz tərəfindən Azərbaycanın NATO-nun etibarlı tərəfdaşı olaraq, alyansa üzv olan dörd ölkənin təbii qaz təchizatçısı olması və bu ölkələrin sayının artırıla biləcəyi xüsusi vurğulandı. Dövlət başçımız Azərbaycanın regionda sülhün bərqərar olmasında marağını Ermənistanla qonşuluq siyasətinin qurulmasına dair sülh sazişi üzərində işə başlamağa hazır olduğunu bildirdi.

Cənab Prezident Ermənistanın Zəngəzur dəhlizi ilə bağlı vaxtaşırı səsləndirdikləri ziddiyyətli fikirlərə işarə edərək, birmənalı olaraq, bu dəhlizdən istifadə rejiminin də Laçın dəhlizi ilə eyni olduğunu vurğuladı. Möhtərəm Prezidentimiz Azərbaycanın etibarlı tərəfdaş kimi hər zaman dialoqa açıq olduğunu bir daha qeyd etdi.

Bu görüşü NATO - ya üzv dövlətlər tərəfindən ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının tanınması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsindəki tarixi qələbəmizə alyansın dəstəyi kimi qəbul etmək olar.

***Məlahət İBRAHİMQIZI,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti .- 2021.- 17 dekabr.- S.5.